

# SEVDA ƏLİBƏYLİ VƏ ONUN YENİ KİTABI

**Şəddat CƏFƏROV**

***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Azərbaycanın mənəviyyat tarixini yaradan söz adamlarının hər biri sözə önəm verib. Sözü yüksək tutub. Hər kəs öz gücü daxilində sözü şöhrətləndirib. Böyük şairimiz Məhəmməd Füzulinin neçə yüz ildir ki, sözü tərənnüm edən əsərləri dillər əzbəridir. Füzuli doğru deyir ki, əgər sözə dirilik versən, o səni əcəl yuxusundan qoruyar.

Bizim cənub bölgəsinin də məşhur *"Söz"* jurnalı həmişə sözə dəyər verənləri uca tutub. Çünki bu jurnalın baş redaktoru Sevda Əlibəylinin özü də böyük söz adamıdır.

1993-cü ildə - o dövrdə jurnal təsis etmək, onun nəşrinə nail olmaq kimsəyə asan gəlməsin. Mən poliqrafiya sahəsində çalışdığımdan müəyyən imkanlara malik idim və *"Söz"* jurnalının nəşrinə öz köməyimi əsirgəmədim. Onu da deyim ki, jurnal Bakıda "Azərbaycan" nəşriyyatında çap olunurdu, bu iş ilə Sevda Əlibəyli məşğul olurdu. O dövrdə Şəkər Aslan mənə bir şeir də həsr etmişdi. *"Kitab yazaydım"* adlı bu şeir mənə həsr olunan kiabların hamısında təkrar-təkrar çap olunub. Həmin şeiri hər dəfə oxuyanda elə bilirəm ki, elə indicə yazılıb. Sözün ruh etibarı ilə təzəliyi həmişə könlümə xoş ovqat bəxş edir.

Təəssüf ki, Şəkər Aslan dünyasını tez dəyişdi. Amma onun başladığı böyük işlərdən biri olan *"Söz"* jurnalının nəşri davam etdirilir. O vaxtdan indiyədək Sevda Əlibəyli jurnalın baş redaktoru kimi qayğıları öz üzərinə götürüb. Zamanın müxtəlif dönəmlərində nə qədər çətinliklərlə qarşılaşsa da, jurnalı yaşatmaqda davam edir.

Doğrudur, Şəkər Aslanın mənim haqqımda yazacağı kitaba vaxtı çatmadı, ömrü yarımçıq qırıldı. Amma bu işi də Sevda Əlibəyli öz üzərinə götürdü. 70 illik yubileyim ərəfəsində "İlk poliqrafçı alim" kitabını yazıb nəşr etdirdi. Bu kitabı poliqrafiya sahəsində gördüyüm işlərə verilən dəyər kimi qəbul etdim. Onu da deyim ki, sonralar həmin kitabı Azərbaycan Respublikasının Prezidentinə 9 May günündə veteranlarla görüşdə şəxsən təqdim etdim. Həmin günün yadigar şəkilləri arxivimin ən dəyərli fotolarıdır.

Dəyərli söz zaman keçdikcə unudulmur, dildən-dilə, ağızdan-ağıza keçir. İnsanlara yaşamaq, yaratmaq enerjisi bəxş edir. Vaxt, zaman bizə həmişə yeni surprizlər bəxş edir. Şübhəsiz, belə surprizlər uğurla bağlı olanda daha çox sevinirik.

Sevda Əlibəylinin mənim 80 illiyimə həsr etdiyi *"Söz"* juranlının xüsusi buraxılışını vərəqləyirəm. Burada müxtəlif portretlər, obrazlar, tarixi şəkillər var. Hiss edirəm ki, hər bir xüsusi buraxılış Sevda Əlibəyli üçün yeni bir yaradıcılıq layihəsidir. O, cənub bölgəsinin görkəmli adamlarının həyatı ilə yaxından maraqlanır, onları öyrənir. Yeni nəsil üçün əhəmiyyətli ola biləcək obrazları özünün canlı, şirin publisistikası ilə yenidən həyata qaytarır.

Bu günlərdə Sevda Əlibəylinin bizim *"Bakı mətbəəsi"*ndə yeni bir kitabı da işıq üzü görüb. Kitabın annotasiyasına əsasən qısa qeydlərimlə əsas obraz haqqında oxucuda müxtəsər təsəvvür yaratmaq istərdim; Sevda Əlibəylinin bu kitabı ömrünün 50 ildən çoxunu Lənkəranın iqtisadi və mədəni həyatının yüksəlişinə həsr etmiş Səadət Tağıyev haqqında sənədli povestdir. Müəllifin həyat hadisələrinə geniş yer verməsi, ədəbi qəhrəmanın tale yolu ilə bağlı maraqlı məqamları yazıya gətirməsi onu oxuculara doğmalaşdırır. Bu kitabı oxuyan hər kəs Səadət Tağıyevin həyat və əmək bioqrafiyası ilə yaxından tanış olmaq imkanı qazanır. Müəllif ədəbi qəhrəmanını oxuculara daha yaxından tanıtmaq üçün onun haqqında dost-tanışlarının xatirələrindən də yerli-yerində istifadə edir. Bu kitabın rəyçiləri biologiya elmləri doktoru, akademik Məmməd Salmanov, əməkdar həkim, uroloq-alim Xaqani Hüseynov, yazıçı-jurnalist Etibar Əhədov, əməkdar jurnalist Tahir Aydınoğludur.

Kitaba *"ön söz"*ü görkəmli ədəbiyyatşünas alim, əməkdar elm xadimi, filologiya elmləri doktoru professor Nizaməddin Şəmsizadə yazmışdır.

*"Ön söz"*ün müəllifi kitabın əsas məziyyətini şəxsiyyət obrazı ətrafında şərh edir. Elə Nizaməddin Şəmsizadə yazısını *"Onun adı şəxsiyyətdir"* adlandırır.

Sevda Əlibəylinin *"Səadət Tağıyev"* adı ilə nəşr olunan sənədli povesti həm ədəbi qəhrəmanın dövrünə işıq salır, həm də insanlığın tapındığı mənəvi dəyərləri oxucu diqqətinə çatdırır. Hər bir kitabın da dəyəri onunla ölçülür ki, yazılan nə dərəcədə oxucu yaddaşında iz buraxır.

Professor Nizaməddin Şəmsizadə sözünə Allahın tərənnümü ilə başlayır: "Böyük insanlar Günəşə bənzəyirlər. Qədim türklər Tanrını Günəş kimi təsəvvür edirlər. *"Kitabi-Dədə Qorqud"* eposunda Allah belə təqdim olunur: *"Ucalardan ucasan - kimsə bilməz necəsən"*. Bu qeydlər görkəmli alimin yazısının əvvəlinə səbəbsiz gəlmir. Çünki Nizaməddin Şəmsizadə mistik düşüncədən gələn bir hisslə həyatın nizamında ulu yaradanın qadirliyini göstərmək istəyir. Yəni xalq üçün yaşayan insanların həyatını əbədiləşdirməyi uca Allahın özü qələm sahiblərinə təlqin edir.

Hər hansı bir əsər, hər hansı bir söz məhsulu, lap elə kitab haqqında yazmaq üçün sözü yaradanın özünə nə qədər ilham gərəkdirsə, münasibət bildirənin, təhlil edənin özünə də bir o qədər ilham gərəkdir. Əgər oxunan material tənqidçiyə, publisistə, yazını şərh edənə ilham bəxş etməsə, o heç nə yaza bilməz, heç nə deyə bilməz. Mən cənub bölgəsini yaxşı tanıyıram. Burada yaşayıb yaradan yaradıcı insanları da çox yaxşı tanıyıram. Əlbəttə, əmək cəbhəsində halal zəhməti ilə ad-san qazananların da çoxu ilə tanışam. Onu da bilirəm ki, Sevda Əlibəyli də haqqında yazmaq istədiyi şəxsin həyatı üçün əsas meyar elə zəhməti, zəhmətsevərliyi həesab edir.

Zəhmətə güvənən insanların həyatını yaradıcı adamlar üçün ilham qaynağı hesab etmək olar. Demək, Sevda Əlibəylinin də ilham qaynağı zəhmətə güvəcnli insandır. Elə professor Nizaməddin Şəmsizadənin də düşüncələrinin qol-qanad açmasında ilham mənbəyi əsərin ədəbi qəhrəmanıdır. Və eləcə də, Sevda Əlibəylinin oxucunun duyğularını, eyni zamanda tənqidçiyə söz demək imkanı verən düşüncələridir. Professor yazır: *"Böyük insan da belədir: özü görünmür - haləsi, əməlləri görünür. Atalar bir də "igidin adını eşidib özünü görmə" - deyiblər. Böyük şəxsiyyətlərin aurası - haləsi özündən qabaq xalqa və millətə bəlli olur, faydalar verir. Bir gün Roma imperatoru Mark Avreliyə xəbər edirlər ki, ordu başçısı olan general səni görmək istəyir. General onun yanına gəlib deyir: "Əlahəzrət imperator, məni öldürmək*




*istəyirlər". Generalın təşvəş və vahiməsi Avreliyə pis təsir edir. Ağıllı və tədbirli Mark Avreli deyir: "Səni heç vaxt öldürə bilməzlər. Çünki səni öldürmək üçün əvvəlcə sənin adını öldürmək lazımdır. Sənin adın isə milyonların qəlbindədir". Milyonları yox etmək mümkün olmadığı kimi, səni də öldürmək mümkün deyil. General inam və fərəhlə orduya qayıdır. Böyük şəxsiyyətlərin adları beləcə onların özlərindən böyük olur".* Professor çox maraqlı mülahizələr yürüdür. Həqiqətən, qüdrətli insanların və eləcə də, Sevda Əlibəylinin özünün və onun qəhrəmanının ad-sanı, şöhrəti reallığın imkanlarından da yuxarıdadır. İnsanın yaddaşında əks-səda verən nə varsa, hamısı real həyatdan qaynaqlanır. Amma yaddaş süzgəcindən keçir. Yaddaş onu sevərək qəbul edirsə, bir az da böyüdür.

Professor Nizaməddin Şəmsizadə maraqlı müqayisələr, bənzətmələrlə oxucunun ruhunu qanadlandıran fikirlər söyləyir. Hər bir ədəbi-fəlsəfi mühakimənin arxasında dərin məna və geniş düşüncə olduğunu hiss edirik: *"Hamı Günəşin haləsini - işığını görür və istini duyur. Heç kim Günəşin sifətini görməyib: "Zərrə mənəm, Günəş mənəm! Çar ilə pəncü-şeş mənəm" - deyib insanı Günəşə bənzədərdi dahi Nəsimi. Vaqif isə "Pəri" qoşmasında öz gözəlini onunla qiyaslayırdı: "Günəş kimi hor çıxanda səhərdən, Alırsan Vaqifin əqlini sərdən". Adam bir evin, adam var ki, dünyanın bəzəyi, şöhrəti, şanıdır".* Professor Nizaməddin Şəmsizadə öz yazısında həm ədəbi-fəlsəfi düşüncəyə söykənir, həm də Azərbaycan poeziyasından məşhur olan obrazlara istinad edir. Göründüyü kimi o, Vaqifi yada salır, Nəsimini xatırlayır və maraqlı müqayisələrlə fikrini davam etdirir.

Sevda Əlibəyli yaxşı bilirdi ki, yaratdığı obraz bir növ müasirimiz olan insanla bağlıdır. Ona görə də onun yaşam yolunu, həyatını yaxından öyrənib və bu öyrənmə əslində onunla ədəbi qəhrəmanı arasında mənəvi doğmalıq hissi yaradıb. Düşünümək olar ki, Sevda Əlibəylinin ədəbi qəhrəmanının yazıya uğurla gətirilməsi onun həyatdakı obrazına çox yaxın olması ilə bağlıdır.

Professor N.Şəmsizadə də xarakterizə etdiyi obrazın təbiətini özünün yaxından gördüyü, tanıdığı obraz və məkanla bağlı şərh edir: *"Mən bu il öz şərəfli əməlləri, qürurlu şəxsiyyəti, sərt, tələbkar, prinsipial xarakteri, fəqət, böyük məhəbbəti və zəngin mənəvi aləmi ilə təkcə bir eli deyil, həm də respublikanın ağsaqqalına çevrilmiş, canlı ikən heykəlləşmiş belə bir adamla tanış oldum. Mənim televiziyadakı çıxışlarımı az qala əzbərdən bilən, pərəstişkarım olan bu adam - Səadət Tağıyev Lənkəranın Separadi kəndində öz evinin doqqazında məni olduqca səmimi qarşıladı. Elə bildim ki, 40 illik dostumla görüşdüm. Mən ondan Azərbaycanın Cənub zonasının ətrini və hərarətini aldım".* Çox isti, hərarətli düşüncələrdir. Bizim cənub bölgəmizin belə doğmalıqla tərənnümü öz yerini, yurdunu sevən hər kəs kimi mənə də çox xoş gəldi. Professorun öz dostu ilə görüşü və ondan aldığı təəssürat göstərir ki, Sevda Əlibəyli Səadət Tağıyev obrazına münasibətində yanılmayıb.

Professor Nizaməddin Şəmsizadə haqqında danışdığı şəxsi 78 yaşı olanda görüb. Öz təəssüratını da həmin görüş əsasında yazır: *"Dostlarım Qənimət Səfərli və Şəmistan Əlizamanlı ilə mən İstisu qəsəbəsində onunla birlikdə olduq. 78 yaşlı şux, qıvraq, nikbin, müdrik el ağsaqqalı ata kimi mehriban idi. mən ondan 12 il əvvəl itirdiyim atam Şəmsəddinin mehrini duydum. Mən adətən, danışığı sevən və bacaran adam olsam da, uşaq kimi ona qulaq asmaq istəyirdim. İbrətli,yerli-yataqlı, müdrik söhbətindən dərini bir zövq alırdım. O isə istəyirdi ki, daha çox mən danışım. Az müddət ərzində Səadət müəllim həyat təcrübəsindən mayalanan, canlı bir tarix olan ağıllı və inandırıcı söhbətləri, böyük-kiçik əxlaqı, ədəb-ərkan fəlsəfəsi ilə mənim 59 illik həyatımda bir çevriliş əmələ gətirdi. Məni fərəhləndirən o idi ki, ilk dəfə gördüyüm insanla düşündüklərim üst-üstə düşür, bir-birini tamamlayırdı. Bu düşüncələr tarixə güvənir və onların arxasında dünyanın ən ədalətli hakimi olan tarix dayanırdı".* Məlum olduğu kimi professor Nizaməddin Şəmsizadənin özü də tənqidçi ədəbiyyatşünaslıq sahəsində, xüsusilə də nəzəriyyə ilə bağlı tədqiqatları ilə məşhurdur. Ancaq onun özü də yeri gəldikcə hətta nəzəri məqalələrində belə obrazlı danışmağa üstünlük verir.

Elə bu səbəbdən də oxucu Nizaməddin Şəmsizadənin yazılarını həmişə maraqla izləyir. Hətta ayrı-ayrı adamlar onun televiziya çıxışlarına da xüsusi maraq göstərirlər.

***(Davamı 11-ci səhifədə)***

*(Əvvəli 10-cu səhifədə)*

# SEVDA ƏLİBƏYLİ VƏ ONUN YENİ KİTABI

Professor Nizaməddin Şəmsizadə Sevda Əlibəylinin kitabını xüsusi bir hisslə qarşılayır. Ona görə yox ki, əsərin qəhrəmanı onun dostudur. Ona görə əsərə belə yanaşır ki, cəmiyyətə tanıdılmaqda halal haqqı olan insanları yazarlar da təqdir edirlər.

Kimin haqqında və necə yazmaq hər bir yazarın vicdani işidir. Elə mənim özüm də Sevda Əlibəylinin bu kitabı üzərində düşünərkən insanlığın mənəvi tələbatını əsas götürürəm. Çünki S.Əlibəyli bu kitabın üzərində xüsusi cəfakeşliklə işləyib. Əsərin araya-ərsəyə gəlməsi böyük zəhmət çəkib. Əlbəttə, bu mənada mən də N.Şəmsizadənin yanaşmasını təqdir edirəm: *"Səadət Tağıyevlə tarix baxımından qısamüddətli canlı söhbətlərimi Sevda Əlibəylinin "Səadət Tağıyev" adlı sənədli povesti daha da zənginləşdirdi və tamamladı. Müəllif Cənub bölgəsinin təbiətini, azərbaycanlı mentalitetini, qəhrəmanının yaşadığı ictimai-siyasi mühiti - sovet cəmiyyətinin mahiyyətini, uğurlarını, qüsurlarını və ən başlıcası, qəhrəmanının genetik tarixini, əsil-nəcabətini, şəxsiyyət kimi mənəvi aləmini və psixologiyasını yaxşı bildiyindən Səadət Tağıyevin bir təsərrüfat rəhbəri və şəxsiyyət kimi portretini dolğun yarada bilmişdir. Zəngin faktlar, səriştəli jurnalist qələmi, fəlsəfi ümumiləşdirmələr əsasında rəvan dildə yazılmış povest maraqla oxunur. Səadət Tağıyevi XX əsrin 80-ci illərinin əvvəllərindən 30 il ərzində 1983-2013 tanıyan təvazökar jurnalist Sevda Əlibəyli onu "ömrünün 50 ildən çoxunu Lənkəranın iqtisadi və mədəni həyatının yüksəlişinə sərf etmiş" mahir təsərrüfatçı kimi təqdim edir"*. Müəllif Sevda Əlibəylini təvazökar jurnalist kimi xarakterizə edir. Onun yaradıcılıq yolunu dəyərləndirərkən istər-istəməz rəğbətli münasibətini diqqətə çatdırır.

Bəli, professorun dediyi kimi Sevda Əlibəyli kifayət qədər yaradıcılıq təcrübəsi olan səriştəli qələm sahibidir. O hər hansı bir materialı, həyat faktını oxucuya quruluqla çatdırmır. Onu təxəyyül süzgəcindən keçirir, yeri gəldikcə həyat faktlarını təbiət təsvirləri ilə, insan münasibətlərinin dərinliklərinə nüfuz edən düşüncələrlə bəzəyir.

Professor N.Şəmsizadə S.Əlibəylinin bu kitab üzərində işinə sözün həqiqi mənasında səmimi yanaşma ilə yüksək qiymət verir. Hər halda Sevda Əlibəyli özü də professorun maraqlı qeydlərini oxuyarkən yəqin ki, məmnunluq hissləri keçirmişdir.

Əməkdar elm xadimi N.Şəmsizadə kimi bir alimin yazıçı-jurnalist əməyinə verdiyi dəyər bizi həyatda zəhmətin itməməsi qənaətinə gətirir. Professor N.Şəmsizadə S.Əlibəylinin əməyini belə qiymətləndirir: *"Sevda Əlibəyli povesti Səadət Tağıyev haqqında sənət və materiallar, mətbuat məqalələri əsasında yox, xalq arasında, dövlət yanında və dost-tanış yaddaşındakı həqiqətlər əsasında yazıb. Şübhəsiz ki, əsas məxəz Səadət müəllimin öz ömürnaməsindən, aydın və kamil yaddaşından süzülüb gələn canlı söhbətləri olub. O, iki əsrin - XX-XXI əsrlərin, II və III minilliklərin qovşağında yaşayan canlı kənd təsərrüfatı ensiklopediyası, insanlıq və şəxsiyyət ensiklopediyasıdır. Diqqət və səylə onun tarixilik baxımından təsdiqini tapan məntiqli söhbətlərini yerli-yataqlı qələmə alsın, bu ensiklopediyanı ən oxunaqlı əsər kimi kağıza köçürmüş olarsan. Onun içində 60 illik zəngin və mənalı, mürəkkəb və ziddiyyətli bir tarix mürgüləyir. Sevda Əlibəylinin əsərinin canlı və həyati olmasının bir səbəbi də budur ki, Səadət Tağıyev fenomeninə təkcə faktların dili ilə yox, həm də duyğuların hərarəti, bir qadın qəlbi və publisist fəhmi ilə yaxınlaşa bilmişdir"*. Ötən əsr bizdən çox şey apardı. Çox dəyərlər dağıldı. Cəmiyyətin həyatını gözəlləşdirən insanların yaratdığı ənənələr də unuduldu. Doğrudur, yeni əsr də bizə təzə dəyərlər bəxş etdi. Azərbaycan öz müstəqilliyini qoruyub saxladı. Öz sərvətinin sahibi oldu. Və indi zaman gəlib ki, biz itirdiyimiz bir çox qiymətli dəyərləri bərpa etməyə, yenidən cəmiyyətə qaytarmağa vaxt və imkan qazanmışıq.

Professor Nizaməddin Şəmsizadə maraqlı tənqidi qeydini də bildirməkdən çəkinmir: *"Bu dəyərli, məzmunlu, həm tariximiz, həm bu günümüz, həm də gələcək üçün faydalı, lazımlı olan bu əsərə, sadəcə, "Səadət Tağıyev" yox, məsələn, "Canlı abidə" adı qoymaq daha cazibədar, daha mənalı və doğru olardı. Mənim gördüyüm Səadət Tağıyev Azərbaycanın əfsanəvi cənub torpağında zəlzələdən sonra uca dağ kimi yerdən-torpaqdan boy atan canlı abidədir. Səadət Tağıyevdə mən yurdumun kişilərinə məxsus qürur və əxlaq gördüm. O, qeyrət, zəhmət və ləyaqət dayaqları üzərində dayanan bir şəxsiyyət simvolu - insanlıq abidəsidir. Az müddət içində o, birdən-birə həyatımla bağlı adamlar içərisində ön sıraya keçdi. Elə bir zəngin, mənalı, xoşbəxt ömür yaşamışam ki, məni nə mənsəblə, nə sərvətlə, nə də mükafatla təəccübləndirmək olmaz. Fəqət, Cənub mirvarisi Səadət müəllim məni çox böyük bir dəyərlə mat qoydu. Onun adı şəxsiyyətdir"*. Filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı Nizaməddin Şəmsizadə yenə sözünü şəxsiyyət ifadəsi ilə bitirir. Sözün həqiqi mənasında cəmiyyətin həyatında şəxsiyyətin rolu həmişə həlledici olub.

Nizaməddin Şəmsizadənin canlı abidə hesab etdiyi bu əsər Sevda Əlibəylinin yeni uğurudur. Müəllifin özü əsər üzərindəki işini kitabın əvvəlində verdiyi qeydlərlə bizə çatdırır. Məlumdur ki, hər bir müəllif əsərini yaradarkən material toplayır, mənbələrə baxır, konkret olaraq seçdiyi obrazın həyat yolunu yaxından öyrənir.

Sevda Əlibəyli də seçdiyi obrazın təbiətini xarakterizə edərkən onun fərdi cizgilərini təkcə diqqətdə saxlamır, əsəri oxuya biləcək oxucunun ixtiyarına buraxmır, elə qabaqcadan müəllif qeydlərinin əvvəlinə gətirir: *"Bəzən insanın xarakteri zahirində də özünü büruzə verir. Başucalığı, şux yerişi yəqin ki, məğrurluğunun təzahürüdür. Onun təbiətində bir əmretmə iddiası var. Zahiri görünüşündə də özünü büruzə verir bu. Sanki anadan belə doğulub - başıuca, şax, məğrur. Həmsöhbətlərinin diqqətini cəlb etməyi, hərdən komanda verməyi də xoşlayır. Bu, bəlkə də on illərlə müxtəlif vəzifələrdə rəhbər işləməsiylə əlaqədardır. Xarakterindəki hərbçilərə xas oturuşu və duruşu, hərbçi intizamı, hərbçi səliqə-sahmanı, hərbçi hökmranlığı xasiyyətinin bu gün dəyişməz cizgiləridir. Bəlkə də bu xarakterlə bitib-tükənməyən enerjiylə hərb sənətinin ardıyca getsəydi, ən yüksək hərbi rütbələrə nail olardı. Lakin getməyib həmin yolu"*. Göründüyü kimi, Sevda Əlibəyli bir növ ümumi şəkildə insanı xarakterizə edir. Bu yanaşma ilə əslində əsəri yaradarkən keçirdiyi hissləri göstərir. Elə bil ki, yazacağı, yaradacağı obrazı əvvəlcə cəmiyyətin özündə axtarır. Ayrı-ayrı adamların hər birindən təqdir olunan cəhətləri yaddaşına yığır və bunlardan hansının ədəbi qəhrəmanında reallıqla özünü göstərəcəyini müəyyənləşdirir. Yalnız bundan sonra təəssüratlarını ədəbi qəhrəmanı ilə bağlı faktların üzərinə gətirir: *"İşlədiyi hər hansı sahədə böyük rəhbər olub. Səadət Tağıyev ötən əsrin 60-cı illərindən Lənkəranın iqtisadi və mədəni həyatında böyüklük ölçüsü idi. Əmək fəaliyyətində bu böyüklük ölçüsü əsrin sonunadək davam etdi. Səadət Tağıyev yenə böyüklük ölçüsüdür. Şəxsiyyət kimi, ağsaqqal kimi. Onun Lənkəranın iqtisadi və mədəni həyatında nə qədər əhəmiyyətli bir sima olması işlədiyi illərdə də bilinirdi, indi də bilinir"*.

Sevda Əlibəylinin bu qeydləri göstərir ki, o, əsərin qəhrəmanını çox əvvəllərdən tanıyır. Əslində onun obrazını yazıya gətirməmişdən əvvəl mənəvi mühitində yaradıb.

Sevda Əlibəylinin də qeydlərindən göründüyü kimi əsərin qəhrəmanı təkcə Lənkəranda yox, elə Azərbaycanda da qədərincə tanınıb. Onun haqqında mətbuatda dəfələrlə yazılıb. Sözü-söhbəti həmişə dillərdə olub.

Sevda Əlibəyli öz qeydlərində müxtəlif mənbələrə istinadını bildirir. O cümlədən, jurnalist həmkarlarının da düşüncələrindən müəyyən təəssürat aldığını yada salır.

Şəkər Aslan bölgənin həyatını - həm təsərrüfatını, həm də insanlarını çox yaxşı tanıyırdı. Şəkər Aslanın Sevda Əlibəyli üçün ustadlığı da onun yaradıcılığında mühüm əhəmiyyət kəsb edib. Yeri gəldikcə, Sevda Əlibəyli Şəkər Aslanın hər hansı bir məsələyə yanaşmasında səmimiyyəti yüksək dəyərləndirir: "Onu mən də çoxdan tanıyıram. 1983-cü ilin fevralından - *"Lənkəran" ("Leninçi")* qəzetində işə başladığım zamandan. Oçerk yazmaq istəyirdim. Bir otaqda oturduğum qəzetin məsul katibi, respublikada tanınmış jurnalist Etibar Əhədova müraciət etdim. Etibar müəllim mənə məşhur əmək qəhrəmanı olan 4-5 qadının adını verdi. Adlarını yazdığım siyahını redaktorumuz Şəkər Aslana göstərdim. Şəkər müəllim adlara baxıb gülümsədi. Eynəyini çıxarıb dedi: *"İndi bunların hamısı qoca qadınlardır. Bəziləri heç işləmir. Bir də ki, onlar haqda çox yazılıb, sən nə yazacaqsan? Bizdə "Komsomolun 50 illiyi" adına sovxoz var. Çayçılıq üzrə ixtisaslaşmış təsərrüfatdır. Şöhrəti bütün SSRİ-yə yayılıb. Elə indi sovxoza getməyin məqamıdır, çay yığımının qızğın dövrüdür. Cavan, işgüzar qızlar çoxdur orada, onlardan yaz. Sovxozun direktoru Səadət Tağıyev də qabiliyyətli adamdır. Zəng vur, maşın da göndərər"*. Hər halda bu bir maraqlı nüansdır. Bu fakt özü göstərir ki, Sevdanın seçdiyi ədəbi qəhrəmanı Şəkər Aslan hələ o zaman təqdir edib.

Əlbəttə, S.Əlibəyli özü də təsərrüfat sahəsində tanınan ədəbi qəhrəmanının haqqında kifayət qədər bilgili olub. Bunu onun öz qeydləri də təsdiq edir: *"O vaxtadək Səadət Tağıyevin adını çox eşitmişdim. Haqqında yerli və respublika qəzetlərinin səhifələrində çox yazılar oxumuşdum. Şəkər müəllim "maşın da göndərər, gedərsən" deyəndə sanki daxildən qırıldım. Axı, işlədiyim iki ay müddətində Böyük Bazardan başlayıb uzağı Kiçik Bazardan çıxmışdım. Sovxoz idarəsinin yerləşdiyi Separadi kəndi isə mənim üçün əlçatmaz bir diyar idi. Odur ki, nə edəcəyimi bilmirdim. Şəkər müəllimin tapşırığı isə qanun idi"*. Bu qeydlər göstərir ki, hər bir yazıçı kimi Sevda Əlibəyli də Nizaməddin Şəmsizadənin canlı abidə adlandırdığı sənədli povestini hələ yazıya gətirməmişdən əvvəl uzun zaman ərzində düşüncələrində yaradıb.

S.Əlibəylinin ədəbi qəhrəmanı ilə görüşü də onun öz təəssüratında daha canlı təsir bağışlayır: *"Vaxt uçurdu. Yazı həmin həftənin iş planına salınmışdı. Təhvil verməliydim. Sovxozun telefon nömrəsini alıb, zəng vurdum. Direktor - Səadət Tağıyev məni gözlədiyini bildirdi. İndi həmin yalanı xatırlamasam da, nəsə uydurub gedə bilməyəcəyimi söylədim. Oçerk yazacağım çaybecərəni redaksiyaya göndərməsini xahiş etdim. Razılaşdı. Ertəsi gün sovxozun partkomu Barat Rzayevin Ziyafət adlı çay becərən qızla məndən də qabaq redaksiyaya gəlmişdi. Söhbətləşdik. Növbəti nömrədə elə "Ziyafət" adlı yazım dərc olundu. Bir neçə gün sonra Bakıya getdim. Həmin yazı "Sovet kəndi" qəzetində də dərc olundu. Rayona qayıdanda redaksiyanın kitabxanaçısı, məktəb illərindən tanıdığım ziyalı rəfiqəm Nərminə Əliyeva bildirdi ki, qəzetdə yazı dərc olunandan sonra Səadət müəllim sənə minnətdarlığını bildirmək üçün redaksiyaya zəng vurmuşdu. Və söyləyib ki, belə işgüzar qızlarımız çoxdur, qoy onlardan da yazsın. O vaxta qədər də xeyli yazım dərc olunmuşdu. Amma heç kimin zəng vurub minnətdarlıq etdiyini görməmişdim"*. Sevda Əlibəylinin öz təəssüratları əsasında ona görə bir qədər müfəssəl və əhatəli danışıram ki, bir çox jurnalistlər müəyyən həyat hadisələri, müəyyən şəxsiyyətlər, insanlarla qarşılaşır, onlar haqqında yazır və elə oradaca həm məkanı, həm də o məkanda rastlaşdığı ədəbi qəhrəmanı unudur.

Düşünürəm ki, bu qeydləri oxuyan hər hansı bir publisist, jurnalist özü üçün təcrübə də əxz edə bilər. Gərək hər kəs rastlaşdığı obrazı yaddaşından asanlıqla silməsin.

Sevda Əlibəylinin yeni kitabında insana münasibət məsələsi ön planda durur. Zənnimcə, bu da jurnalist-publisistlər üçün maraqlı örnəkdir.

Bu kitabı vərəqləyən hər kəs bizim cənub mirvarisinin həm gözəl təbiətini bir daha görəcək, həm də bu yerin, bu məkanın artıq əbədiyyətə qovuşmuş, tarixi abidə olmuş insanları ilə təzədən ünsiyyət quracaqlar.

***(Davamı var)***